# VƏTƏN MÜHARİBƏSİNDƏ AZƏRBAYCAN REPUBLİKASININ DİNC ƏHALİSİNƏ QARŞI TÖRƏDİLMİŞ TERROR



2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi dövründə erməni hərbçiləri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq mülki əhalinin sıx yaşadığı məntəqələrə zərbələr endirib.

Vətən müharibəsində Bərdə rayonu da Ermənistan silahlı qüvvələrinin raket və artilleriya atəşinə məruz qalıb. 2020-ci il oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndi Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulub. Beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalardan istifadə edilməklə endirilən zərbələr nəticəsində aralarında uşaq və qadınlar da olmaqla, 5 dinc sakin həyatını itirib, 14 mülki şəxs yaralanıb.

Belə ki, Ermənistan silahlı qüvvələri tərəfindən saat 16 radələrində Bərdə rayonunun Qarayusifli kəndinin müxtəlif istiqamətlərdən kasetli raketlərlə atəşə tutulması nəticəsində 1970-ci il təvəllüdlü Cəfərova Ofeliya Məcid qızı, 1959-cu il təvəllüdlü Əhmədova Aybəniz Əşrəf qızı, 1980-ci il təvəllüdlü İsmayılov Ehtiram Xəlil oğlu, 1960-cı il təvəllüdlü Əliyeva Almaz Salah qızı və 2013-cü il təvəllüdlü İsgəndərova Aysu Rövşən qızı həlak olub.



Ümumilikdə isə 2020-ci il oktyabrın 5-i, 8-i, 27-si və 28-də, həmçinin noyabrın 7-də Bərdə rayonunda törədilən terror aktları nəticəsində 28 nəfər həlak olub, 108 nəfər yaralanıb. Evlərə, mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

2020-ci ilin oktyabr ayında Azərbaycanın Gəncə şəhərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən 5 dəfə ayrı-ayrı zamanlarda bombalanması. Bombalanmalar 2020-ci il Qarabağ döyüşləri dövründə baş vermişdir.



İlk hücum 4 oktyabrda baş vermiş və 1 mülki şəxsin Əliyev Tunar Qoşqar oğlunun Şəhid olması, 30-dan çox mülki şəxsin yaralanması ilə nəticələnmişdir. Bu raket hücumu müharibənin getdiyi Dağlıq Qarabağ bölgəsindən kənara edilən ilk ciddi hücum idi. İkinci raket hücumu isə 5 oktyabrda baş vermişdir. Hücum nəticəsində 3 mülki şəxs yaralanıb. Üçüncü raket hücumu oktybarın 8-də baş vermişdir. Həlak olan və yaralanan olmamışdır. Dördüncü raket hücumu isə 11 oktyabrda baş vermiş və nəticədə 10 mülki şəxs Şəhid olmuş və 40-dan çox insan yaralanmışdır. Bu hücum imzalanan atəşkəsdən bir gün sonra baş vermiş və atəşkəsin pozulması ilə nəticələnmişdir. Mülki şəxsləri hədəf alan beşinci raket hücumu isə 17 oktyabrda baş vermişdir. Hücum nəticəsində hamısı mülki şəxslər olmaqla. 16 nəfər Şəhid olmuş, 55 nəfər isə yaralanmışdır. Hücumlar zamanı şəhərin infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər binalara, avtomobillərə ziyan dəymişdir.

Ermənistanın mülki şəxslərə raket hücumlarından həyatını itirənlər və yaralananlar arasında azyaşlılar da vardır. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bu hücumu

"Azərbaycan xalqına qarşı Xocalı soyqırımından bəri şahidi olduğumuz bir soyqırım aktı" adlandırıb.

Ortada olan sübutlara baxmayaraq, Ermənistan tərəfi hücumların onun tərəfindən edilməsini inkar etmişdir. Qondarma Dağlıq Qarabağ rəhbərliyi isə yalnız birinci hücumun məsuliyyətini öz üzərinə götürmüşdür.

Raket hücumları BMT, Avropa İttifaqı və Türkiyə tərəfindən qınanmışdır.Gəncədə baş verənlərlə hadisə yerində tanış olan Azərbaycandakı diplomatik korpusların rəhbərləri, hərbi attaşelər, beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri erməni vəhşiliyinin günahsız qurbanlarının yaşadıqları dəhşətləri öz gözləri ilə gördülər. Dövlətimizin başçısı xalqa müraciətində bu terror hadisələri ilə bağlı xüsusi vurğulayırdı ki, Ermənistanın günahsız insanları və mülki obyektləri raket hücumuna məruz qoyması müharibə cinayətidir və bunun üçün cavab verilməlidir.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda 44 gün davam edən mübarizə Zəfərlə başa çatdıqdan sonra dövlətimizin başçısı İlham Əliyevin Sərəncamına əsasən haqq və şərəf işimiz uğrunda qəhrəmancasına həlak olan əsgər və zabitlərimizin, erməni təxribatları zamanı hədəf alınan mülki vətəndaşlarımızın xatirəsinə böyük ehtiram əlaməti olaraq 27 sentyabr ölkəmizdə Anım Günü kimi qeyd edilir. Prezident İlham Əliyev 2022-ci ilin yanvarında Gəncəyə səfəri zamanı həmin ərazidə Gəncə Memorial Kompleksinin təməlini qoydu. Erməni vandalizminin yaddaşlardan silinməməsi üçün belə bir kompleksin yaradılması mühüm addımdır. Gəncə Memorial Kompleksində erməni vəhşiliyini, terrorunu unutmamaq, gələcək nəsillərə çatdırmaq və bütün dünyaya nümayiş etdirmək üçün dağıdılmış binalar olduğu kimi qalacaq. Şübhəsiz atılan bu kimi addımlar dünyaya belə bir çağırışdır ki, ikili standartlara əsaslanan siyasətə son qoyub həqiqətlərə ədalətin gözü ilə baxmaq zamanıdır. Erməni vəhşiliklərini, təxribatlarını ört-basdır etmək üçün susmağa üstünlük vermək deyil, bu kimi terror aktlarının təşkilatçılarını və icraçılarını cəzalandırmaq üçün beynəlxalq hüquq çərçivəsində lazımi addımları atmaq gərəkdir.



Tərtər rayonunun bombardmanı müharibənin ikinci günündə, 28 sentyabrda, erməni qüvvələri rayonun inzibati mərkəzi olan Tərtər şəhərini və Birinci Qarabağ müharibəsində qaçqın düşən azərbaycanlılar üçün inşa edilən Şıxarxı atəşə tutduqda başlamışdır.

Bombardman geniş dağıntılara və çox sayda mülki ölümə səbəb oldu. Rəsmi Azərbaycan rəqəmləri göstərir ki, bombalar zamanı məktəblər, xəstəxanalar və dövlət binaları da daxil olmaqla mindən çox mülki obyekt ya ziyan görmüş, ya da məhv edilmişdir.

Human Rights Watch erməni qüvvələri tərəfindən uşaq bağçaları və xəstəxanalar kimi dövlət və mülki obyektlərə yönəlmiş bir çox hədəf hücumlarını təsdiqləyir, üstəlik erməni hərbi qüvvələrinin Azərbaycan ərazilərinə qanunsuz olaraq qadağan olunmuş silahlardan hücumlarının müharibə cinayətləri olduğunu da bildirir.

Tərtər şəhərinin, habelə rayondakı qəsəbə və kəndlərinin bombardmanı yalnız 10 noyabrda Ermənistanın Dağlıq Qarabağ atəşkəs bəyanatını imzalamasından sonra dayandırılmışdır.

29 oktyabr tarixində Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov müharibə zamanı Tərtər rayonunda bombardman nəticəsində 17 mülki şəxsin öldüyünü və 61 nəfərin yaralandığını bildirmişdir. Onun sözlərinə görə, ümumilikdə təxminən 1200 nəfər bombardmandan əziyyət çəkmişdir. Azərbaycan hakimiyyəti daha sonra iki mülki şəxsin xəsarət aldığını bildirir.

Müharibənin ikinci günündə Azərbaycan Prezident Administrasiyası Tərtər rayonuna bir gündə 2 mindən çox mərmi düşdüyünü bildirdi. 29 oktyabr tarixində Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov bildirdi ki, müharibə zamanı erməni qüvvələri rayon ərazisinə 15.500 mərmi atmış, bəzi günlərdə Tərtərə 2000-dən çox mərmi düşmüşdür. Onun sözlərinə görə, 29 oktyabr tarixinə qədər 133 ev tamamilə dağıdılmış, 873 ev, həmçinin 14 məktəb, üç xəstəxana və 18 dövlət binası qismən ziyan görmüşdür. 5 noyabrda Euronews, şəhərin yaşayış və ticarət bölgələrinin ciddi ziyan gördüyünü bildirir.

Noyabr ayının əvvəlində Azərbaycan hökuməti tərəfindən yaradılan işçi qrupları müharibə zamanı dəymiş ziyanı qiymətləndirməyə başladmış və ziyan həddən artıq çox olduğu üçün üç işçi qrupu Tərtər rayonuna göndərilmişdir. 24 noyabrda Tərtərə göndərilən işçi qrupların rəhbəri Qubad Heydərov bildirmişdir ki, araşdırma işləri başa çatmaqla 611 fərdi ev və 147 mənzil daxil olmaqla 796 ziyan dəymiş əmlak artıq yoxlanılmışdır. 14 yanvar 2021-ci ildə Heydərov bombardman zamanı ümumilikdə 3800 obyektin zədələndiyini, 76-nın isə tamamilə yararsız vəziyyətdə olduğunu və bərpa oluna bilməyəcəyini bildirir. Təxminən 600 obyektin nəzərdən keçirilməsinin planlaşdırıldığını da əlavə edir.

Amnesty International 14 yanvar 2021-ci ildə Şıxarxda inşa edilmiş 34 mənzilli binadan ən azı 25-nin vurulduğunu, səkkiz binanın damının dağıldığını və yüzlərlə digər mənzilin, inzibati binanın müxtəlif dərəcələrdə ziyana məruz qaldığını bildirir.

Düşmənlə üz-üzə dayanmış goranboylular da bu savaşda ermənilərə layiq olduqları yeri göstərdilər. Rayonun Tapqaraqoyunlu kəndi ermənilər tərəfindən mərmi atəşinə tutulsa da, kənd sakinləri Azərbaycan Ordusunun gücünə inanaraq öz ata-baba yurdlarını tərk etmədilər. Əksinə, Suqovuşanın düşmən işğalından azad edilməsindən sonra rayon ərazisinin suvarma suyu ilə təminatında əvvəllər mövcud olan problemlərə son qoydular.

İkinci Qarabağ müharibəsi zamanı Ağdam, Naftalan, Füzuli və digər bölgələrimiz də Ermənistan tərəfindən intensiv atəşə məruz qaldı. Lakin öz Liderinə sonsuz inam bəsləyən Azərbaycan xalqı mətanəti, dönməzliyi ilə erməni vəhşiliyinə qalib gəldi. Xalqımız tam əmin idi ki, Prezident İlham Əliyevin Ali Baş Komandan olduğu Milli Ordumuzun qətiyyəti ilə tezliklə işğal altında olan bütün ərazilərimiz azad ediləcəkdir. Nəticədə 44 gündə 30 ilin işğalına son qoyuldu. Tarixi ədalət bərpa olundu. Bu gün artıq soydaşlarımız mərhələli şəkildə doğma yurd-yuvalarına qayıdırlar.